

*Xalqı tarixdə yaşadan onun yetirdiyi böyük şəxsiyyətlərdir. Xalqımızın böyük oğlu, ulu öndər, türk dünyasının fəxri, ümummilli liderimiz Heydər Əliyev məhz belə nəhəng simalardandır.*

# HEYDƏR ƏLİYEV VƏ GƏNCLİK

Mənalı ömrünü Azərbaycan dövlətinin möhkəmləndirilməsinə, inkişafına, zənginləşdirilməsinə, gənclərin fiziki və mənəvi tərbiyəsinə həsr edən Heydər Əliyev ölkəmizin bütün sahələrində qazandığı nailiyyətlərin ilhamçısı və təşkilatçısı olmuşdur. Onun hakimiyyətə gəlişi ilə ölkəmizdə yeni era başlanmışdır. Böyük siyasi şəxsiyyət Heydər Əliyev xalqımızın bütün enerjisini özündə təcəssüm etdirən dahi idi. Xalqın müdrikliyinə inandığı Heydər Əliyev qətiyyət, cəsarət, iradə, uşaqlara, gənclərə qayğı ilə yanaşmağın parlaq nümunəsi olmuşdur.

"Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır. Əgər buna nail ola bilsəm ən xoşbəxt adam kimi həyatımı başa çatdıracağam" deyən Heydər Əliyevin dövlətçilik fəaliyyətinin əsası budur. Azərbaycanın demokratik, hüquqi və dünyəvi dövlət quruluncuğunun, ilk Konstitusiyasının, Avropa Şurasının tamhüquqlu üzv qəbul olunmasının təşkilatçısı Heydər Əliyevdir.

Azərbaycan – gənclər ölkəsidir. Respublika əhalisinin 66%-i gənclərdir. Elmi-texniki tərəqqinin sürətlə inkişaf etdiyi elə bir sahə tapmaq olmaz ki, orada gənclərin izi olmasın. Azərbaycan gəncləri ölkəmizdə gedən demokratikləşmə prosesində, mədəniyyət, incəsənət, elm və təhsil sahəsində böyük uğurla irəliləyərək, zəngin milli-mədəni irsimizin qorunub saxlanılması və inkişaf etdirilməsi istiqamətində mühüm addımlar atırlar. Həm 2000-ci il Sidney, həm də 2004-cü ildə keçirilmiş Afina yay Olimpiya oyunlarında gənclərimizin əldə etdiyi uğurlar da xüsusi qeyd edilməlidir.

1993-cü ilin sentyabrında gənclərin problemləri ilə dərindən maraqlanaraq onların bir qrupu ilə görüş keçirən Heydər Əliyev 1994-cü ildə Gənclər və İdman Nazirliyinin yaranması haqqında fərman imzaladı. Bu tarixi hadisənin reallaşması nəticəsində müstəqil Azərbaycan Respublikasında gənclər daha da mütəşəkkilləşdilər. Gənclərin işləri ilə məşğul olan xüsusi nazirlik yarandı. Nazirlik qısa vaxt ərzində gənclərlə iş sahəsindəki nöqsanların aradan qaldırılması, gənclərin dövlətçilik və müstəqillik naminə möhkəm birliyinə nail olunması sahəsində bir sıra tədbirlər görmüşdür.

Müdrik dövlət xadimi, ümummilli lider Heydər Əliyev gənclərə həmişə xüsusi diqqət və qayğı göstərmiş, onlara fiziki və mənəvi cəhətdən sağlam, savadlı olmaları üçün səmərəli şərait yaratmışdır. O, iftixarla deyirdi: "Mənim üçün ən əziz nemət Azərbaycan uşaqlarıdır. Çünki Azərbaycan Respublikasının prezidenti olaraq bu gün haqqında deyil, Azərbaycanın böyük gələcəyini düşünürəm. Azərbaycanın gələcəyi də uşaqlardan asılıdır".

O, uşaqların və gənclərin ali təhsil almasına, elm öyrənməsinə, Azərbaycan tarixinə, ədəbiyyatına, mədəniyyətinə məhəbbət ruhunda tərbiyə olunmasında atalıq qayğısı göstərmiş, heç zaman səmərəli köməyini əsirgəməmişdir. O, ömrünün əsas hissəsini xalqına, onun rifahının yüksəlməsinə, elminin və mədəniyyətinin inkişafına, gələcəyimiz olan uşaqların və gənc nəslin təlim-tərbiyəsinə həsr etmiş və hərtərəfli qayğı göstər-

17022

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

mişdir.

Gənclərin milli vətənpərvərlik tərbiyəsinin yüksəlməsində Heydər Əliyevin böyük xidməti vardır. Sağlam vətəndaş böyütmək, layiqli övlad yetişdirmək umummilli liderimizin arzularından biri idi. Ona görə də Milli Olimpiya Komitəsinin inkişaf etdirilməsi ilə Heydər Əliyev gənclərin həyatında yeni bir mərhələnin başlanğıcını qoydu. Məhz bu yolla idmançılarımız dünya miqyasında öz bacarıqlarını nümayiş etdirmək imkanları əldə etdilər, uğur qazandılar və bu gün də uğurlar davam edir.

Son 15 ildə dövlət tərəfindən gənclərin qayğılarına diqqət güclənmiş, problemlərin əməlli həlli üçün konkret addımlar atılmışdır. Xalqımızın ümumilli lideri Heydər Əliyevin gərgin əməyi nəticəsində 1994-cü ildə atəşkəs elan edilmişdir. Dövlətimiz gənc müharibə veteranları üçün çox böyük işlər görmüşdür. 1994-cü ildə "Veteranlar haqqında" qanuna dəyişikliklər, "Fiziki şəxslərdən gəlir vergisi haqqında" qanuna dəyişiklikər və s. qanunlar qəbul olunmuşdur. Bu cəhətdən xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə 1996-cı il fevralın 2-də müstəqil Azərbaycan gənclərinin I Forumu keçirildi. Xalqımızın lideri Heydər Əliyevin bu məclisdə məzmunlu çıxışı gəncliyimiz üçün proqram sənədinə çevrildi. Heydər Əliyevin "...gənclərimizin əsas vəzifəsi özünü məstəqil Azərbaycan Respublikasının yaşamasına, əbədi olmasına həsr etməkdən ibarət olmalıdır..." sözləri gənclərimizi həyatda və cəmiyyətdə öz yerlərini tutmaqdan ötrü istiqamətləndirdi. "Mən gənclərimizə bu tövsiyələri verirəm. Öz ana dilimizi, Azərbaycan dilini mənimsəmək lazımdır, bu dildə yaxşı danımaq lazımdır, bu dili daim ana dili kimi duymaq lazımdır, bu dili sevmək lazımdır. Mən arzu edirəm ki, Azərbaycan gənci Şekspiri ingilis dilində oxusun, Puşkini rus dilində oxusun, Nizamini, Füzulini, Nəsimini Azərbaycan dilində oxusun".

Xalqımızın ümummilli lideri Heydər Əliyev gənclərin I Forumunda demişdir: "... Mən istərdim ki, Azərbaycan gəncləri sağlam, güclü olsun, Vətənimizin düşmənlərinə qarşı barışmaz olsun, öz xalqı uğrunda, ölkəmizin tam qələbəsi uğrunda şox gözəl vuruşmağı bacarsın".

1997-ci il fevralın 1-də forumun 1 illiyi münasibətilə gənclərin bir qrupunu qəbul edən Heydər Əliyev tərəfindən "2 fevral- Azərbaycan Gəncləri günü"nün elan edilməsi haqqında fərman imzalanması, gənclərimizə göstərilən diqqətin nəticəsi oldu.

Müstəqillik illərində ali təhsil pilləsi həm məzmun, həm struktur, həm də kəmiyyət baxımından inkişaf yolu keçib. Azərbaycanın ali təhsili tarixində ilk dəfə olaraq 1993-1994-cü tədris ilindən etibarən ikipilləli ali təhsilə - 4 illik bakalavr və 2 illik magistraturaya keçilmişdir. Dövlət ali məktəblərin sayı 17-dən 20-yə çatmışdır. Ali məktəblərimiz həm də sanballı elm mərkəzlərinə çevrilmişdir. Son 10 ildə rəsmi dövlət qeydiyyatından keçmiş 18 qeyri-dövlət ali təhsil müəssisəsi də fəaliyyət göstərir.

Ali təhsil sahəsində yeniliklərdən biri də "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası prezidentinin 13 iyun 2000-ci il tarixli fərmanı ilə ölkənin 4 aparıcı ali məktəbinə - Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Neft Akademiyası, Azərbaycan Dövlət Tibb Universiteti və Azərbaycan Kənd Təsərrüfatı Akademiyasına maliyyə müstəqilliyi, bir neçə ali məktəbə isə "universitet" statusu verilmişdir. Həmin fərmanla təhsil sistemində indiyədək ölkəmizdə analoqu olmayan ali tədris müəssisəsi - Azərbaycan Müəllimlər İnstitunun və onun 12 bölgədə regional filialların yaradılması islahat istiqamətində atılan uğurlu addımlardandır.

Gəncləri təhsil almaga, oxumağa çağıran Heydər Əliyev öyrədirdi ki, əlbəttə, dünyada mövcud olan bütün elmlərə yiyələnmək mümkün deyil. Lakin ehtiyatlı olmaq üçün, Vətəni sevmək üçün hər bir gənc iki elmi mütləq yaxşı öyrənməlidir. Bu elmlərdən biri ana dilimiz olan Azərbaycan dili, o birisi isə Vətən tariximiz-Azərbaycan tarixidir. O deyidi ki, "gənclər bütün bunları nə qədər çox bilsələr millətini, xalqını, vətənini, müstəqil Azərbaycanı da bir o qədər sevəcəklər. Vətəni sevmədən isə işğal olunmuş torpaqlarımızın azad edilməsi uğrunda mübarizə aparmaq mümkün deyil. Düşmənə qarşı barışmaz mübariz olmaq üçün Vətəni candan artıq sevmək lazımdir".

Müstəqillik illərində təhsil sahəsində beynəlxalq əlaqələr genişlənmişdir. Bu gün dünyanın



inkişaf etmiş 40-dək ölkəsində 160-a yaxın ixtisas üzrə 3000-dən artıq azərbaycanlı gənc təhsil alır, təqribən 50 xarici ölkədən isə Azəbyacanın müxtəlif ali məktəblərində 2000-dən çox tələbə, magistr, aspiant təhsil almaqdadır. Bu gün xarici əlaqələr sahəsində əsas strateji məqsəd hər bir ali təhsil müəssisəsinin beynəlxalq fəaliyyət subyektinə çevrilməsinə imkan yatratmaqdan, Avropa İqtisadi Birliyinin, YUNESKO-nun və digər beynəlxalq təşkilatların müxtəlif təhsil proqramları və layihələrində iştirak etməkdən ibarətdir. Prezidentin gənc nəslə və təhsilə diqqəti isə xüsusilə təqdirəlayiqdir. Dövlət idarəçilik strukturlarında gənc nəsilə geniş yer verilməsi, xalqın gələcəyi olan gənclərə olan xüsusi diqqət – biz gənclərin üzərinə böyük məsuliyyət qoyur. Bizə göstərilən etimadı əməli işimizlə doğrutmalıyıq.

Gənclərin hərtərəfli inkişafı Azərbaycan Respublikasının dövlət siyasətinin mühüm istiqamətlərindən biridir. İndiki gəncliyin qarşısında ən taleyüklü vəzifə - müstəqilliyimizin qorunması, ərazi bütövlüyümüzün qorunması, ərazi bütövlüyümüzün bərpa edilməsidir. Bu gun Heydər Əliyev ideyalarının layiqli davamçısı İlham Əliyevin apardığı uğurlu daxili və xarici siyasət Azərbaycanın aydın sabahından xəbər verir. Bu sabahı çiyinlərində daşıyacaq yetişməkdə olan hər bir azərbaycanlı övladı bu ideyaları davam etdirməli və gələcək nəsillərə çatdırmalıdır Bütövlüyü pozulmuş torpaqlarımızı yenidən özümüzə qaytarmaq üçün biz yalnız Heydər Əliyev ideyaları ilə möhkəm silahlanmalıyıq.

Nərgiz RZAYEVA

Ədəbiyyat

1. A.Bayramov. Heydər Əliyev və Muzeylərimiz B. "Şür", 1999.
2. İ.Hüseynov Asudə vaxt mədəniyyətinin tərbiyə edilməsi sahəsində başlıca məqsəd və vəzifələr. B. "Nərgiz", 2000.
3. Tətbiqi kulturologiya. B. "Mars-Print", 2004.